*YƏHYAYA NAZİL OLAN*

# VƏHY

## GİRİŞ

*«Vəhy Kitabı»* məsihçilərin İsa Məsihə Rəbb kimi iman etdiklərinə görə təqib olunduqları dövrdə yazılıb. Ehtimal olunur ki, kitab ya imperator Neronun hakimiyyətinin (miladdan sonra 54-68) son illərində ya da imperator Domisianın hakimiyyəti (miladdan sonra 81-96) dövründə yazılıb. Müəllifin əsas qayğısı imanlılara bu təqiblərdə və iztirablar zamanı təsəlli verməkdir. Kitabın böyük bir hissəsi rəmzi dillə təsvir olunmuş vəhy və görüntülərdən ibarətdir.

Bu kitabın izahına aid müxtəlif rəylər mövcud olsa da, əsas mövzu aydındır: İsa Məsih vasitəsilə Allah, nəhayət, Şeytan da daxil olmaqla düşmənlərini tamamilə məğlub edəcək. Allah tam qalib gələndə Öz sadiq övladlarını yeni göy və yeni yer xeyir-duaları ilə mükafatlandıracaq.

**Kitabın məzmunu:**

1:1-3 Giriş
1:4-3:22 Açıq görüntü və yeddi cəmiyyətə məktub
4:1-8:1 Yeddi möhürlü tumar
8:2-11:19 Yeddi şeypur
12:1-13:18 Əjdaha və iki heyvan
14:1-15:8 Müxtəlif görüntülər
16:1-21 Allahın hiddəti və yeddi kasa
17:1-18 Fahişə qadın
18:1-24 Babilin dağılması
19:1-21 Göylərdə sevinc
20:1-15 Minillik Padşahlıq
21:1-22:5 Yeni göy, yeni yer, yeni Yerusəlim
22:6-21 İsanın zühuru

# 1

[1] Bu, İsa Məsihin vəhyidir. Allah bunu Ona verdi ki, tezliklə baş verməli
hadisələri Öz qullarına aşkar etsin. Məsih də bunu Öz mələyi vasitəsilə qulu
Yəhyaya göndərərək bəyan etdi. [2] Yəhya Allahın kəlamı və İsa Məsihin
şəhadəti, yəni gördüyü hər şey barədə şəhadət etdi. [3] Nə bəxtiyardır bu
peyğəmbərlik sözlərini oxuyan, eşidənlər və orada yazılanlara riayət edənlər!
Çünki vaxt yaxındır.

## Yeddi imanlılar cəmiyyətinə müraciət

[4-5] [*]Mən Yəhyadan Asiya vilayətindəki yeddi imanlılar cəmiyyətinə salam!
Var Olan, Var Olmuş və Gəlməli Olandan, Onun taxtının önündəki yeddi
ruhdan, həmçinin ölülər arasından ilk doğulan, yer üzünün padşahlarının
başçısı olan sadiq şahid İsa Məsihdən sizə lütf və sülh olsun!
Bizi sevən, Öz qanı bahasına bizi günahlarımızdan azad edərək[a] [6] bizdən
bir padşahlıq təşkil edən və bizi Öz Atası Allah üçün kahinlər təyin edən
Şəxsə əbədi olaraq izzət və qüdrət olsun! Amin.

[7] [*]Budur, O, buludlarla gəlir!
Hər göz Onu görəcək,
Hətta Onun bədənini deşənlər də
Onu görəcək.
Yer üzünün bütün tayfaları
Onun üçün ah-nalə edəcək.
Bəli, belə olacaq. Amin.

[8] [*]Var olan, Var olmuş və Gəlməli olan Külli-İxtiyar Rəbb Allah deyir:
«Alfa və Omeqa[b] Mənəm!»
[9] Əziyyətə, Allahın Padşahlığına və dözümə sizinlə İsada şərik olan mən –
qardaşınız Yəhya Allahın kəlamından ötrü və İsa barədə şəhadət etdiyimə
görə Patmos adlanan adada idim. [10] Rəbbin günü Ruhun təsirinə düşdüm.
Arxamdan şeypur səsinə bənzər uca bir səsin belə söylədiyini eşitdim:
[11] «Gördüyünü bir kitaba yaz və bunu yeddi cəmiyyətə, yəni Efesə, İzmirə,
Berqamaya, Tiatiraya, Sarda, Filadelfiyaya və Laodikeyaya göndər».
[12] [*]Onda çevrildim ki, mənimlə danışanın kim olduğunu görüm.
Çevrildikdə yeddi qızıl çıraqdan gördüm. [13] Çıraqdanların arasında uzun
cübbə geymiş, sinəsinə qızıl qurşaq bağlamış bəşər oğluna bənzər Biri var
idi. [14] Onun başı, saçı yun və qar kimi ağ, gözləri isə odlu alov kimi idi;
[15] ayaqları kürədə xalis olan pardaqlanmış tunc kimi idi, səsi də gur suların
sədasına bənzəyirdi. [16] O, sağ əlində yeddi ulduz tutmuşdu, ağzından
ikiağızlı iti bir qılınc çıxırdı; Onun üzü tam qüvvəsi ilə parlayan günəşə

---

[*]**1:4-6** Çıx. 3:14; 19:6; Zəb. 89:27; Yeş. 55:4; Vəhy 4:5; 5:10
[a]**1:4-5** *Günahlarımızdan azad edərək* – bəzi əlyazmalarda *günahlarımızdan yuyaraq.*
[*]**1:7** Dan. 7:13; Zək. 12:10; Mat. 24:30; Mark 13:26; Luka 21:27; Yəh. 19:34,37; 1Sal. 4:17
[*]**1:8** Çıx. 3:14; Vəhy 21:6; 22:13
[b]**1:8** *Alfa və Omeqa* – bəzi əlyazmalarda *Alfa və Omeqa, Başlanğıc və Axır* (Vəhy 21:6).
[*]**1:12-15** Yez. 1:24; 43:2; Dan. 7:9,13; 10:5-6

bənzəyirdi.
[17] [*]Mən Onu gördükdə ölü kimi ayaqlarına düşdüm. O isə sağ əlini mənim
üstümə qoyub dedi: «Qorxma! Birinci və Sonuncu Olan, [18] Diri Olan
Mənəm. Mən ölmüşdüm, indi isə əbədi olaraq diriyəm. Ölümün və ölülər
diyarının açarları Məndədir. [19] Beləliklə, öz gördüklərini, indi və bundan
sonra baş verəcək hadisələri yaz. [20] Mənim sağ əlimdə gördüyün yeddi
ulduzun və yeddi qızıl çıraqdanın sirrinə gəlincə, yeddi ulduz yeddi
cəmiyyətin mələkləri, yeddi çıraqdan da yeddi cəmiyyət deməkdir.

# 2

## Efesdəki cəmiyyət

[1] Efesdə olan cəmiyyətin mələyinə yaz:
Yeddi ulduzu sağ əlində Tutan, yeddi qızıl çıraqdanın arasında
Gəzən belə deyir: [2] sənin əməllərindən, zəhmətindən, dözümündən və
şər adamlara dözmədiyindən xəbərdaram. Həvari olmadıqları halda
özlərini həvari adlandıranları sınaqdan keçirdin və onların yalançı
olduğunu müəyyən etdin. [3] Sən dözümlü oldun, Mənim adım naminə
tab gətirdin və yorulmadın.
[4] Amma səndən bir şikayətim var: əvvəlki məhəbbətindən əl
çəkmisən. [5] Buna görə də haradan yıxıldığını yadına sal, tövbə et və
əvvəl etdiyin işləri gör. Əks təqdirdə, tövbə etməsən, yanına gəlib[c]
çıraqdanını yerindən götürəcəyəm. [6] Amma yaxşı ki sən nikolaçıların
əməllərinə nifrət edirsən; Mən də onlara nifrət edirəm.
[7] [*]Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib
gələnə Allahın cənnətində olan həyat ağacından yeməyə imkan
verəcəyəm.

## İzmirdəki cəmiyyət

[8] [*]İzmirdə olan cəmiyyətin mələyinə yaz:
Birinci və Sonuncu Olan, ölüb yenidən Dirilən belə deyir: [9] sənin
əziyyətindən[d] və yoxsulluğundan xəbərdaram, amma sən zənginsən.
Yəhudi olduqlarını iddia edənlərin küfründən də xəbərdaram, amma
onlar Yəhudi deyil, Şeytan yığıncağıdır. [10] Çəkəcəyin əzabdan heç

---

[*]**1:17** Yeş. 44:6; 48:12; Vəhy 2:8; 22:13
[c]**2:5** *Yanına gəlib* – bəzi əlyazmalarda *tezliklə yanına gəlib.*
[*]**2:7** Yar. 2:9; Yez. 28:13; 31:8; Vəhy 22:2
[*]**2:8-9** Yeş. 44:6; 48:12; Vəhy 1:17; 22:13
[d]**2:9** *Əziyyətindən* – bəzi əlyazmalarda *əməllərindən, əziyyətindən.*

qorxma. Bax iblis aranızdan bəzisini zindana atacaq ki, sınaqdan
keçəsiniz. Siz on gün əziyyət çəkəcəksiniz. Ölüm bahasına olsa da,
sadiq qal, Mən sənə həyat tacını verəcəyəm.
11 [*]Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib gələn
ikinci ölümdən heç zərər görməyəcək.

## Berqamadakı cəmiyyət

12 Berqamada olan cəmiyyətin mələyinə yaz:
İkiağızlı iti qılıncı Olan belə deyir: 13 gör harada,[e] Şeytanın taxtı olan
yerdə yaşadığın halda Mənim adıma bağlı qaldığından xəbərdaram.
Barəmdə sədaqətlə şəhadət edən, aranızda, Şeytanın yaşadığı yerdə
öldürülən Antipanın günlərində belə, Mənə olan imanından imtina
etmədin.
14 [*]Amma səndən bir az şikayətim var: aranızda Bilamın təliminə
bağlı olanlar var. O, Balaqı öyrətdi ki, İsrail övladlarını büdrədərək
bütlərə təqdim olunan qurbanların ətini yeməyə və əxlaqsızlığa
azdırsın. 15 Eləcə də sənin içində nikolaçıların bu cür təliminə bağlı
olanlar var. 16 Buna görə də tövbə et. Yoxsa tezliklə sənin yanına gəlib
ağzımdan çıxan qılıncla onlarla döyüşəcəyəm.
17 [*]Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib
gələnə Mən gizli[f] saxlanan mannadan verəcəyəm. Ona bir ağ daş da
verəcəyəm ki, üstündə yeni ad yazılıb; bu adı da daşı alandan başqa
heç kəs bilmir.

## Tiatiradakı cəmiyyət

18 Tiatirada olan cəmiyyətin mələyinə yaz:
Gözləri odlu alova, ayaqları da pardaqlanmış tunca bənzəyən Allah
Oğlu belə deyir: 19 sənin əməllərindən, məhəbbətindən, imanından,
xidmətindən və dözümündən xəbərdaram; son işlərin də əvvəlkilərdən
daha çoxdur.
20 [*]Amma səndən şikayətim var: sən özünü peyğəmbər adlandıran
qadın İzevelə imkan verirsən ki, Mənim qullarıma əxlaqsızlıq və
bütlərə təqdim olunan qurbanların ətini yeməyi öyrədərək onları

---

[*]**2:11** Vəhy 20:14; 21:8
[e]**2:13** *Gör harada* – bəzi əlyazmalarda *sənin əməllərindən və gör harada.*
[*]**2:14** Say. 22:5,6; 25:1-3; 31:16; Qanun. 23:4
[*]**2:17** Çıx. 16:12-15, 33-35; Yeş. 62:2; 65:15; Yəh. 6:31, 48-50, 58
[f]**2:17** *Gizli* – bəzi əlyazmalarda *yemək üçün gizli.*
[*]**2:20** 1Pad. 16:31; 2Pad. 9:22,30

aldatsın. [21] Mən ona möhlət verdim ki, tövbə etsin, amma
əxlaqsızlığından tövbə etmək istəmir. [22] Bax onu xəstəlik yatağına
salıram. Onunla zina edənlər birgə etdikləri əməllərdən tövbə
etməsələr, onları da böyük əziyyətə düçar edəcəyəm. [23] *Onun
övladlarını azara salıb öldürəcəyəm. Bütün cəmiyyətlər də biləcək ki,
insanın daxilini və ürəyini araşdıran Mənəm və hər birinizə
əməllərinizə görə əvəz verəcəyəm.
[24] Amma siz Tiatirada olan digərlərinə, yəni bu təlimi qəbul
etməyənlərə və Şeytanın dərin sirri adlandırılan şeyləri
öyrənməyənlərə deyirəm: üstünüzə başqa bir yük qoymuram; [25] ancaq
Mən gəlincəyə qədər özünüzdə olana bağlı qalın.
[26] *Qalib gələnə və Mənim buyurduğum işlərə sonadək riayət edənə
millətlər üzərində səlahiyyət verəcəyəm.
[27] "Dəmir əsa ilə onlara ağalıq edəcək,
Saxsı qablar kimi onları çilik-çilik edəcək".
[28] Bunu Atamdan necə aldımsa, eləcə də ona verəcəyəm. Dan
ulduzunu da ona verəcəyəm. [29] Qulağı olan qoy eşitsin ki, Ruh
cəmiyyətlərə nə deyir.

# 3

## Sarddakı cəmiyyət

[1] Sardda olan cəmiyyətin mələyinə yaz:
Allahın yeddi ruhuna və yeddi ulduza malik Olan belə deyir: sənin
əməllərindən xəbərdaram. Adın var ki, guya dirisən, əslində isə
ölüsən. [2] Oyaq ol və sağ qalıb ölmək üzrə olan nəyin varsa, onu
möhkəmləndir. Çünki Mən sənin əməllərinin Allahımın önündə kamil
olmadığını gördüm. [3] Buna görə də nə aldığını və nə eşitdiyini yadına
sal. Bunlara riayət et və tövbə elə. Əgər oyaq olmasan, bir oğru kimi
gələcəyəm və hansı saat sənin üstünə gələcəyimi də bilməyəcəksən.
[4] Amma Sardda, sənin yanında öz paltarlarını ləkələməyən bir neçə
şəxs də var. Onlar Mənimlə birlikdə ağ paltarda gəzəcəklər, çünki
buna layiqdirlər. [5] Qalib gələn hər kəs də ağ paltar geyinəcək. Mən
onun adını həyat kitabından əsla silməyəcəyəm, Atamın və Onun
mələklərinin önündə adını iqrar edəcəyəm. [6] Qulağı olan qoy eşitsin
ki, Ruh cəmiyyətlərə nə deyir.

---

*__2:23__ Zəb. 7:9; 62:12; Yer. 17:10
*__2:26-28__ Zəb. 2:8-9

## Filadelfiyadakı cəmiyyət

[7] *Filadelfiyada olan cəmiyyətin mələyinə yaz:
Müqəddəs və Haqq Olan, Davudun açarının Sahibi, açdığını heç kəs
bağlamayan, bağladığını heç kəs açmayan belə deyir: [8] sənin
əməllərindən xəbərdaram. Bax Mən sənin üzünə elə bir qapı açmışam
ki, heç kəs onu bağlaya bilməz. Gücün az olduğu halda Mənim
sözümə riayət etmisən və Mənim adımdan imtina etməmisən. [9] *İndi
isə Şeytan yığıncağından olub Yəhudi olmadıqları halda özlərini
Yəhudi adlandıran yalançıları məcbur edəcəyəm ki, gəlib sənin
ayaqlarına düşsünlər və Mənim səni sevdiyimi bilsinlər. [10] Dözüm
göstərərək Mənim sözümə riayət etmisən. Buna görə Mən də səni yer
üzündə yaşayanları sınamaq üçün bütün dünyanın üzərinə gələcək
sınaq zamanından qoruyub saxlayacağam. [11] Tezliklə gəlirəm. Nəyin
varsa, ona bağlı qal ki, heç kəs tacını götürməsin.
[12] *Qalib gələni Allahımın məbədinə sütun qoyacağam və bir daha
oranı tərk etməyəcək. Onun üzərinə Allahımın adını, Allahıma
məxsus şəhərin, yəni göydən, Allahımın yanından enən yeni
Yerusəlimin adını və Öz yeni adımı yazacağam. [13] Qulağı olan qoy
eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir.

## Laodikeyadakı cəmiyyət

[14] *Laodikeyada olan cəmiyyətin mələyinə yaz:
Amin Olan, sadiq və etibarlı Şahid, Allahın yaratdıqlarının Mənşəyi
belə deyir: [15] sənin əməllərindən xəbərdaram. Sən nə soyuqsan, nə də
isti. Kaş ki ya soyuq ya da isti olaydın! [16] İndi ki nə isti, nə də soyuq
olub ılıqsan, səni ağzımdan qaytaracağam. [17] Çünki deyirsən:
"Varlıyam, zəngin olmuşam və heç nəyə möhtac deyiləm". Amma
bilmirsən ki, zəlil, yazıq, yoxsul, kor və çılpaqsan. [18] Sənə məsləhət
görürəm ki, zəngin olmaq üçün Məndən od içində xalis olan qızıl
alasan, həmçinin geyinib çılpaqlığının ayıbını açmamaq üçün ağ
paltar alasan, gözlərinə sürtüb görmək üçün də göz məlhəmi alasan.
[19] *Mən kimi sevirəm, onu məzəmmət və tərbiyə edirəm. Buna görə də
qeyrətə gəl və tövbə et. [20] Bax qapının önündə durub onu döyürəm;
kim səsimi eşidib qapını açsa, onun yanına gələcəyəm və Mən onunla,

---

*__3:7-8__ Əyy. 12:14; Yeş. 22:22
*__3:9__ Yeş. 43:4; 49:23; 60:14
*__3:12__ Yeş. 62:2; 65:15; Vəhy 21:2
*__3:14-15__ Sül. 8:22
*__3:19__ Sül. 3:12; İbr. 12:6

o da Mənimlə birgə şam edəcəyik.
[21] Qalib gələnə Mənimlə birgə Öz taxtımda oturmağa imkan
verəcəyəm; Mən də eləcə qalib gəlib Atamla birgə Onun taxtında
oturmuşam. [22] Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir».

# 4

## Göydəki taxt

[1] Bundan sonra gördüm ki, göyə açılmış bir qapı var. Əvvəlcə mənimlə
danışdığını eşitdiyim, şeypura bənzər səs dedi: «Bura qalx. Bundan sonra
baş verməli hadisələri sənə göstərəcəyəm». [2] *Elə o an mən Ruhun təsirinə
düşdüm. Budur, göydə bir taxt qurulub, taxtda da Biri oturub. [3] Oturanın
görünüşü yəşəm və qırmızı əqiq daşına bənzəyirdi. Taxtın ətrafında da
görünüşcə zümrüdə bənzəyən göy qurşağı var idi. [4] Taxtın hər tərəfində daha
iyirmi dörd taxt var idi və onların üstündə ağ paltar geyinmiş, başında qızıl
tac olan iyirmi dörd ağsaqqal oturmuşdu. [5] *Taxtdan şimşək, uğultu və göy
gurultusu çıxırdı. Taxtın önündə yeddi məşəl yanırdı; bunlar Allahın yeddi
ruhudur. [6] *Taxtın önündə sanki büllura bənzəyən şüşə dəniz var idi.
Taxtın ətrafında, hər dörd yanında önü də, arxası da gözlərlə örtülmüş dörd
canlı məxluq var idi. [7] Birinci məxluq aslana, ikinci məxluq danaya, üçüncü
məxluqun üzü insan üzünə, dördüncü məxluq da uçan qartala bənzəyirdi.
[8] Bu dörd məxluqdan hər birinin altı qanadı var idi; məxluqların hər tərəfi,
hətta qanadlarının alt tərəfi də gözlərlə örtülmüşdü. Bu məxluqlar gecə-
gündüz dayanmadan deyir:

«Var Olmuş, Var Olan və Gəlməli Olan
Külli-İxtiyar Rəbb Allah
Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!»

[9] Canlı məxluqlar hər dəfə taxtda Oturana, əbədi Yaşayana izzət və şərəf
verib şükür edəndə [10] iyirmi dörd ağsaqqal taxtda Oturanın önündə yerə
qapanıb əbədi Var Olana səcdə edir və taclarını taxtın önünə atıb deyirlər:

[11] «Ey bizim Rəbbimiz və Allahımız!
Sən izzət, şərəf və qüdrət almağa layiqsən.
Çünki hər şeyi Sən yaratdın,
Hər şey Sənin iradənlə var olub yarandı».

# 5

*4:2-3 Yez. 1:26-28; 10:1
*4:5 Çıx. 19:16; Yez. 1:13; Vəhy 1:4; 8:5; 11:19; 16:18
*4:6-8 Yeş. 6:2-3; Yez. 1:5-10,18,22; 10:12,14

## Möhürlü tumar və Quzu

[1] *Mən taxtda Oturanın sağ əlində bir tumar gördüm ki, onun hər iki tərəfi
də yazılmışdı və yeddi möhürlə möhürlənmişdi. [2] Həmçinin gördüm ki,
qüdrətli bir mələk uca səslə elan edir: «Tumarın möhürlərini qırmağa və onu
açmağa kim layiqdir?» [3] Amma nə göydə, nə yer üzündə, nə də yer altında
bir kəs bu tumarı açmağı yaxud onun içinə baxmağı bacarmadı. [4] Mən çox
ağladım, çünki tumarı açmağa yaxud onun içinə baxmağa layiq olan bir kəs
tapılmadı. [5] *Onda ağsaqqallardan biri mənə dedi: «Ağlama! Budur, Yəhuda
qəbiləsindən olan Aslan, Davudun Kökü qalib gəlib; buna görə də O, tumarı
və onun yeddi möhürünü aça bilir».

[6] *Gördüm ki, taxtla dörd canlı məxluqun ortasında və ağsaqqalların
arasında bir Quzu dayanıb; O sanki kəsilmiş vəziyyətdə idi. Onun yeddi
buynuzu və yeddi gözü var idi ki, bunlar da bütün yer üzünə göndərilmiş
Allahın yeddi ruhudur. [7] Quzu yaxınlaşıb taxtda Oturanın sağ əlindən tumarı
götürdü. [8] *O, tumarı götürdüyü zaman dörd canlı məxluq və iyirmi dörd
ağsaqqal Quzunun önündə yerə qapandı. Hər birinin əlində çəng var idi və
buxurla dolu qızıl nimçələr tuturdular ki, bunlar müqəddəslərin dualarıdır.
[9] *Onlar yeni bir nəğmə oxuyaraq deyirdi:

«Sən tumarı götürüb
Onun möhürlərini qırmağa layiqsən.
Çünki Sən kəsildin
Və hər tayfadan, dildən, xalqdan və millətdən olanları[g]
Allah üçün Öz qanın bahasına satın aldın.
[10] Onları Allahımızla birgə
Padşahlığa və kahinliyə şərik etdin;
Onlar da yer üzünə padşahlıq edəcək».

[11] *Taxtın, canlı məxluqların və ağsaqqalların ətrafında saysız-hesabsız
mələk gördüm və onların səsini eşitdim. [12] Onlar uca səslə deyirdi:

«Kəsilmiş Quzu
Qüdrəti, sərvəti, hikməti, qüvvəti,
Şərəfi, izzəti və alqışı
Almağa layiqdir».

---

*__5:1__ Yeş. 29:11; Yez. 2:9-10
*__5:5__ Yar. 49:9; Yeş. 11:1,10
*__5:6__ Yeş. 53:7; Zək. 4:10
*__5:8__ Zəb. 141:2
*__5:9-10__ Çıx. 19:6; Zəb. 33:3; 98:1; Yeş. 42:10; Vəhy 1:6
[g]**5:9** *Olanları* – bəzi əlyazmalarda *olan bizi.*
*__5:11__ Dan. 7:10

[13] Həmçinin mən göydə, yer üzündə, yer altında, dənizdə olan bütün
məxluqların və oralardakı bütün varlıqların belə dediyini eşitdim:
«Taxtda Oturana və Quzuya əbədi olaraq
Alqış, şərəf, izzət və qüdrət olsun!»
[14] Dörd canlı məxluq da «Amin!» deyirdi. Onda ağsaqqallar yerə qapanıb
səcdə etdilər.

# 6

## Yeddi möhür

[1] Mən gördüm ki, Quzu yeddi möhürün birini açdı. Onda dörd canlı
məxluqdan birinin göy gurultusuna bənzər səslə «gəl» dediyini eşitdim.
[2] [*]Gördüm ki, bir ağ at və onun belində oturan atlının əlində ox-kaman var.
Ona bir tac verildi və bir qalib kimi yola çıxdı ki, qələbə qazansın.
[3] Quzu ikinci möhürü açanda ikinci canlı məxluqun «gəl» dediyini eşitdim.
[4] Onda ayrısı – od rəngində bir at ortaya çıxdı. Onun belində oturan atlıya
izin verildi ki, yer üzündə sülhü aradan götürsün və insanlara bir-birini
qırdırsın. Atlıya böyük bir qılınc verildi.
[5] Quzu üçüncü möhürü açanda üçüncü canlı məxluqun «gəl» dediyini
eşitdim. Gördüm ki, bir qara at və onun belində oturan atlının əlində tərəzi
var. [6] Dörd canlı məxluqun arasından sanki bir səsin belə dediyini eşitdim:
«Bir xiniks buğda bir dinara, üç xiniks arpa da bir dinaradır;[h] amma zeytun
yağına və şəraba ziyan vurma».
[7] Quzu dördüncü möhürü açanda dördüncü canlı məxluqun «gəl» dediyini
eşitdim. [8] [*]Gördüm ki, bir solğun rəngdə at var. Onun belində oturan atlının
adı Ölüm idi. Ölülər diyarı da onun ardınca gedirdi. Onlara yer üzünün
dörddə biri üzərində səlahiyyət verildi ki, qılınc, aclıq, azar və yer üzündəki
vəhşi heyvanlarla insanları qırsınlar.
[9] Quzu beşinci möhürü açanda qurbangahın altında Allahın kəlamına və
etdikləri şəhadətə görə kəsilən canları gördüm. [10] Onlar uca səslə fəryad
edirdi: «Ey müqəddəs və haqq olan Pərvərdigar, nə vaxta kimi mühakimə
etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?»
[11] Onda hər birinə ağ xalat verilib deyildi ki, özləri ilə birgə qulluq edən,
onlar kimi öldürüləcək bacı-qardaşlarının sayı tamam olana qədər bir az vaxt
da rahat olsunlar.

---

[*]**6:2-5** Zək. 1:8; 6:2-3,6
[h]**6:6** *Bir xiniks … dinaradır* – yəni bir litr buğda, yaxud üç litr arpa fəhlənin bir günlük əmək haqqına satılır.
[*]**6:8** Yez. 14:21

[12] *Quzu altıncı möhürü açanda gördüm ki, böyük bir zəlzələ baş verdi.
Günəş qıldan toxunan çul kimi qaraldı və ayın rəngi bütünlüklə qan kimi
oldu. [13] *Göydəki ulduzlar da əncir ağacının güclü küləkdən sarsılıb kal
meyvələrini tökdüyü kimi yerə töküldü. [14] *Göy də bükülən tumar kimi
çəkilib getdi. Hər dağ və ada yerindən tərpəndi. [15] *Onda yer üzünün
padşahları, böyük adamlar, sərkərdələr, varlılar, güclülər, hər qul və azad
adam mağaralarda və dağlardakı qayalar arasında gizlənib [16] *dağlara və
qayalara dedilər: «Üstümüzə qopub düşün və bizi taxtda Oturanın üzündən,
Quzunun qəzəbindən gizlədin. [17] *Çünki qəzəblərinin böyük günü gəlib çatdı
və ona qarşı kim dura bilər?»

# 7

## Möhürlənmiş şəxslər

[1] *Bundan sonra mən yer üzünün dörd küncündə dayanan dörd mələk
gördüm. Onlar yer üzünün dörd küləyini tutmuşdular ki, nə quru, nə dəniz və
nə də bir ağac üstünə yel əssin. [2] *Gündoğan tərəfdən qalxan başqa bir mələk
də gördüm ki, var olan Allahın möhürünə malik idi. O, uca səslə quruya və
dənizə ziyan vurmaq izni verilmiş dörd mələyi çağırıb dedi: [3] «Biz
Allahımızın qullarının alnını möhürləyənə qədər quruya, dənizə və ağaclara
ziyan vurmayın». [4] Möhürlənmiş şəxslərin sayını da eşitdim; İsrail
övladlarının bütün qəbilələrindən 144 000 nəfər möhürlənmişdi:

[5] Yəhuda qəbiləsindən 12 000 möhürlənmiş nəfər;
Ruven qəbiləsindən 12 000 nəfər;
Qad qəbiləsindən 12 000 nəfər;
[6] Aşer qəbiləsindən 12 000 nəfər;
Naftali qəbiləsindən 12 000 nəfər;
Menaşşe qəbiləsindən 12 000 nəfər;
[7] Şimeon qəbiləsindən 12 000 nəfər;
Levi qəbiləsindən 12 000 nəfər;

---

*__6:12__ Yeş. 13:10; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 11:13; 16:18
*__6:13-14__ Yeş. 34:4
*__6:14__ Vəhy 16:20
*__6:15__ Yeş. 2:19-21
*__6:16__ Huşə 10:8; Luka 23:30
*__6:17__ Yoel 2:11; Mal. 3:2
*__7:1__ Yer. 49:36; Dan. 7:2; Zək. 6:5
*__7:2-3__ Yez. 9:4,6

İssakar qəbiləsindən 12 000 nəfər;
[8] Zevulun qəbiləsindən 12 000 nəfər;
Yusif qəbiləsindən 12 000 nəfər;
Binyamin qəbiləsindən 12 000 möhürlənmiş nəfər.
[9] Bundan sonra mən gördüm ki, hər millətdən, hər tayfadan, hər xalqdan və
hər dildən olan, heç kəsin saya bilməyəcəyi böyük bir kütlə taxtın və
Quzunun önündə dayanıb. Onlar ağ xalat geyinib, əllərində xurma budaqları
tutublar. [10] Uca səslə nida edirdilər:
«Xilas taxtda oturan Allahımıza və Quzuya məxsusdur!»
[11] Bütün mələklər də taxtın, ağsaqqalların və dörd canlı məxluqun ətrafında
dayanmışdı. Onlar taxtın önündə üzüstə yerə qapanaraq Allaha səcdə edib
dedilər:
[12] «Amin! Allahımıza əbədi olaraq
Alqış, izzət, hikmət, şükür, şərəf,
Qüdrət və qüvvət olsun! Amin!»
[13] Bu arada ağsaqqallardan biri məndən soruşdu: «Ağ xalat geyinmiş bu
şəxslər kimdir və haradan gəliblər?» [14] *Ona dedim: «Ağa, bunu sən
bilərsən». O mənə dedi: «Bunlar böyük əziyyətdən keçib gələnlərdir. Onlar
öz xalatlarını yuyub Quzunun qanı ilə ağartdılar. [15] Buna görə də
Onlar Allahın taxtının önündədir,
Gecə-gündüz məbədində Ona ibadət edirlər.
Taxtda Oturan da
Onların üzərində məskən salacaq.
[16] *Onlar bir daha nə ac,
Nə də susuz qalacaq,
Günəş və qızmar isti
Onları vurmayacaq.
[17] Çünki taxtın ortasında olan Quzu
Onların Çobanı olacaq,
Onları həyat suyunun qaynaqlarına aparacaq,
Allah onların bütün göz yaşlarını siləcək».

# 8

## Yeddinci möhür və qızıl buxurdan

[1] Quzu yeddinci möhürü açanda göydə təxminən yarım saat sükut yarandı.
[2] Onda mən Allahın önündə dayanan yeddi mələyi gördüm. Onlara yeddi

---

*__7:14__ Dan. 12:1; Mat. 24:21; Mark 13:19
*__7:16-17__ Zəb. 23:1-2; Yeş. 25:8; 49:10; Yez. 34:23

şeypur verildi.
[3] Başqa bir mələk də gəlib qurbangahın önündə durdu. Onun əlində qızıl
buxurdan var idi və ona çoxlu buxur verildi ki, bunu bütün müqəddəslərin
duaları ilə birgə taxtın önündə olan qızıl qurbangahın üstündə təqdim etsin.
[4] Buxurun tüstüsü müqəddəslərin duaları ilə birgə mələyin əlindən Allahın
önünə yüksəldi. [5] [*]Onda mələk buxurdanı götürüb qurbangahdakı odla
doldurdu və onu yer üzünə atdı. Göy gurultusu, uğultu, şimşək və zəlzələ baş
verdi.

### Altı şeypurun çalınması

[6] Yeddi şeypuru olan yeddi mələk onları çalmağa hazırlaşdı.
[7] [*]Birinci mələk şeypurunu çaldı. Onda qanla qarışıq dolu və od əmələ
gəlib yer üzünə yağdırıldı. Yer üzünün üçdə biri, ağacların üçdə biri və
bütün yaşıl otlar yandırıldı.
[8] İkinci mələk şeypurunu çaldı. Onda sanki böyük bir dağ odla yanaraq
dənizin içinə atıldı. Dənizin üçdə biri qana döndü. [9] Dənizdə olan canlı
məxluqların üçdə biri öldü. Gəmilərin də üçdə biri məhv oldu.
[10] [*]Üçüncü mələk şeypurunu çaldı. Onda göydən məşəl kimi yanan böyük
bir ulduz enib çayların üçdə birinin və su qaynaqlarının üstünə düşdü. [11] [*]O
ulduzun adına «Yovşan» deyilir. Suların üçdə biri yovşana döndü. Çoxlu
adam sulardan öldü, çünki sular acı olmuşdu.
[12] [*]Dördüncü mələk şeypurunu çaldı. Onda günəşin, ayın və ulduzların
üçdə biri vuruldu; buna görə də onların üçdə biri qaraldı. Gündüzün üçdə
biri, gecənin də elə o qədəri işıqsız qaldı.
[13] Onda göyün ortasında uçan bir qartal[i] gördüm və onun uca səslə belə
dediyini eşitdim: «Şeypurlarını çalacaq o biri üç mələyin şeypur səslərindən
yer üzündə yaşayanların vay, vay, vay halına!»

# 9

[1] Beşinci mələk şeypurunu çaldı. Onda mən göydən yerə düşmüş bir ulduz
gördüm. Dibsiz dərinliyə enən quyunun açarı ona verildi. [2] [*]O, dibsiz
dərinliyə enən quyunu açdı və quyudan iri bir kürənin tüstüsünə bənzər tüstü

---

[*]**8:5** Çıx. 19:16; Lev. 16:12; Yez. 10:2; Vəhy 11:19; 16:18
[*]**8:7** Çıx. 9:23-25; Yez. 38:22
[*]**8:10** Yeş. 14:12
[*]**8:11** Yer. 9:15
[*]**8:12** Yeş. 13:10; Yez. 32:7; Yoel 2:10,31; 3:15
[i]**8:13** *Qartal* – bəzi əlyazmalarda *mələk.*
[*]**9:2** Yar. 19:28

çıxdı. Günəş və hava quyudan çıxan tüstüdən qaraldı. 3 *Tüstünün içindən
yer üzünə çəyirtkələr çıxdı və onlara yer üzündəki əqrəblərin gücü qədər güc
verildi. 4 *Onlara deyildi ki, yer üzündəki otlara, heç bir yaşıllığa, heç bir
ağaca deyil, yalnız alınlarında Allahın möhürü olmayan insanlara zərər
vursunlar. 5 Onlara izin verildi ki, insanları öldürmədən onlara beş ay
işgəncə versinlər. Onların verdiyi işgəncə əqrəbin insanı sancdığı zaman
olan işgəncəyə bənzəyir. 6 *O günlərdə insanlar ölüm axtaracaq, amma
tapmayacaqlar. Özlərinə ölüm arzulayacaqlar, amma ölüm onlardan
qaçacaq.
7 *Çəyirtkələrin görünüşü döyüşə hazırlanan atlara bənzəyirdi. Başlarında
sanki qızıl tac var idi, üzləri də insan üzü kimi idi. 8 *Onların qadınlarda olan
kimi saçları var idi, dişləri də aslan dişləri kimi idi. 9 *Döş zirehləri dəmir
zirehlər kimi idi. Qanadlarının səsi döyüşə qaçan çoxlu sayda arabalarla
atların səsinə bənzəyirdi. 10 Onların əqrəb kimi quyruqları və neştərləri var
idi. Quyruqlarında elə gücləri var idi ki, insanlara beş ay zərər verə
bilərdilər. 11 Dibsiz dərinliyin mələyi onların üzərində padşahlıq edirdi; onun
adı ibranicə «Avaddon», yunanca «Apollion»[j] idi.
12 Birinci bəla ötüb keçdi. Budur, ondan sonra daha iki bəla gəlir.
13 *Altıncı mələk şeypurunu çaldı. Onda mən Allahın önündəki qızıl
qurbangahın dörd buynuzundan gələn bir səs eşitdim. 14 Bu səs şeypuru olan
altıncı mələyə deyirdi: «Böyük Fərat çayının kənarında bağlanan dörd
mələyi burax». 15 Həmin o saat, o gün, o ay və o il üçün hazırlanmış dörd
mələk buraxıldı ki, insanların üçdə birini öldürsün. 16 Atlı qoşunların sayı iki
yüz milyon idi; mən onların sayını eşitdim. 17 Mən görüntüdə atları və
onların belində oturan atlıları bu cür gördüm: onların od, tünd göy və kükürd
rəngində döş zirehləri var idi, atların başı aslan başı kimi idi və ağızlarından
od, tüstü və kükürd çıxırdı. 18 Bu üç bəladan, yəni onların ağzından çıxan od,
tüstü və kükürddən insanların üçdə biri həlak oldu. 19 Çünki atların gücü
onların ağzında və quyruğundadır. Onların quyruğu başı olan ilana oxşayır
və atlar bu başlarla da zərər vururlar.

---

*__9:3__ Çıx. 10:12-15
*__9:4__ Yez. 9:4
*__9:6__ Əyy. 3:21; Yer. 8:3
*__9:7__ Yoel 2:4
*__9:8__ Yoel 1:6
*__9:9__ Yoel 2:5
[j]__9:11__ *Apollion* – yəni Məhvedici.
*__9:13__ Çıx. 30:1-3; 37:25-26

[20] *Bu bəlalardan həlak olmayıb sağ qalan adamlar öz əlləri ilə düzəltdikləri
şeylərdən dönüb tövbə etmədilər. Cinlərə və görməyə, eşitməyə, yeriməyə
qadir olmayan qızıl, gümüş, tunc, daş, taxta bütlərə səcdə etməkdən əl
çəkmədilər. [21] Həmçinin onlar nə qatilliklərindən, nə sehrbazlıqlarından, nə
əxlaqsızlıqlarından, nə də oğurluqlarından tövbə etdilər.

# 10

### Mələk və kiçik tumar

[1] Mən göydən enən başqa bir güclü mələyi gördüm. O, buluda bürünmüşdü
və başının üstündə göy qurşağı var idi. Üzü günəşə, ayaqları da od sütununa
bənzəyirdi. [2] Əlində açılmış kiçik bir tumar var idi. O, sağ ayağını dənizin
üstünə, sol ayağını isə quruya qoydu. [3] Aslan nəriltisinə bənzər uca səslə
nida etdi. O nida edəndə yeddi göy gurultusu öz səsi ilə danışdı. [4] Yeddi göy
gurultusu danışdığı zaman mən yazmağa hazırlaşırdım ki, göydən danışan
bir səs eşitdim: «Yeddi göy gurultusunun söylədiklərini möhürlü saxla,
onları yazma». [5] *Onda dənizdə və quruda dayandığını gördüyüm mələk sağ
əlini göyə tərəf qaldırıb [6] əbədi Var Olanın, göyü və oradakıları, yeri və
oradakıları, dənizi və oradakıları Yaradanın adına and içərək dedi: «Daha
möhlət verilməyəcək, [7] amma yeddinci mələyin şeypur çalacağı günlər
Allahın sirli niyyəti, qulları olan peyğəmbərlərə açdığı kimi tam yerinə
yetəcək».
[8] *Göydən eşitdiyim səs yenə də mənimlə danışıb belə dedi: «Get, dənizdə
və quruda dayanan mələyin əlindəki açılmış kiçik tumarı götür». [9] Mən də
mələyin yanına gedib ona dedim ki, kiçik tumarı mənə versin. O mənə dedi:
«Onu götür, ye. O sənin mədəndə acı, ağzında isə bal kimi şirin olacaq».
[10] Mən tumarı mələyin əlindən götürüb yedim. O, ağzımda bal kimi şirin idi,
amma onu yeyəndən sonra mədəmdə acılıq oldu. [11] Mənə belə də deyildi:
«Sən gərək yenə də çoxlu xalq, millət, dil və padşah barədə peyğəmbərlik
edəsən».

# 11

### İki şahid

[1] *Mənə əsaya oxşayan bir qamış verildi və mənə deyildi: «Qalx Allahın

---

*__9:20__ Zəb. 115:4-7; 135:15-17; Dan. 5:23
*__10:5-7__ Qanun. 32:40; Dan. 12:7; Amos 3:7
*__10:8-10__ Yez. 2:8-3:3
*__11:1__ Yez. 40:3; Zək. 2:1-2

məbədini, qurbangahı ölç və orada səcdə edənləri say. 2 *Amma məbədin
bayır həyətini nəzərə alma və oranı ölçmə. Çünki ora başqa millətlərə verildi
və onlar müqəddəs şəhəri qırx iki ay tapdaq edəcək. 3 Öz iki şahidimi
göndərəcəyəm ki, çula bürünərək həmin min iki yüz altmış gün ərzində
peyğəmbərlik etsinlər».
4 *Bunlar yer üzünün Sahibinin önündə dayanan iki zeytun ağacı və iki
çıraqdandır. 5 Əgər kimsə onlara zərər vurmaq istəsə, ağızlarından od çıxıb
düşmənlərini yandırıb-yaxır. Beləcə onlara zərər vurmaq istəyən hər kəs bu
cür öldürülməlidir. 6 *Onların göyü bağlamağa ixtiyarı var ki, peyğəmbərlik
etdikləri günlər yağış yağmasın. Həmçinin onların suları qana döndərməyə
və yer üzünə istədikləri qədər hər cür bəla gətirməyə ixtiyarı var.
7 *Onlar öz şəhadətlərini bitirdikdən sonra dibsiz dərinlikdən çıxan vəhşi
heyvan onlarla döyüşəcək və onları məğlub edib öldürəcək. 8 *Cəsədləri
onların Rəbbinin də çarmıxa çəkildiyi böyük şəhərin baş küçəsinə səriləcək;
həmin şəhər rəmzi olaraq Sodom və Misir adlanır. 9 Müxtəlif xalqlardan,
tayfalardan, dillərdən və millətlərdən olan adamlar üç gün yarım onların
cəsədinə baxacaq və qəbirə qoyulmasına yol verməyəcəklər. 10 Yer üzündə
yaşayanlar onların bu halına sevinib bayram edəcək və bir-birlərinə
hədiyyələr göndərəcək. Çünki bu iki peyğəmbər yer üzündə yaşayanlara
iztirab vermişdi. 11 *Lakin həmin üç gün yarım bitəndə Allahdan gələn həyat
nəfəsi onların içinə girdi və onlar ayağa qalxdı. Onda onları görənlərin
canına böyük qorxu düşdü. 12 *O iki peyğəmbər göydən onlara «Bura
qalxın!» deyən uca bir səs eşitdilər və buludun içində göyə qalxdılar.
Düşmənləri də onlara baxdı. 13 *O saat böyük bir zəlzələ baş verdi və şəhərin
onda biri dağıldı. Zəlzələdə yeddi min nəfər həlak oldu, qalanları isə
qorxuya düşüb göydəki Allahı izzətləndirdilər.
14 İkinci bəla ötüb keçdi. Budur, tezliklə üçüncü bəla gəlir.

## Yeddinci şeypur

15 *Yeddinci mələk şeypurunu çaldı. Göydə belə deyən uca səslər eşidildi:

---

***11:2** Luka 21:24
***11:4** Zək. 4:3,11-14
***11:6** Çıx. 7:17-19; 1Pad. 17:1; 1Sal. 4:8
***11:7** Dan. 7:7,21; Vəhy 13:1-7; 17:8
***11:8** Yeş. 1:9-10
***11:11** Yez. 37:10
***11:12** 2Pad. 2:11
***11:13** Vəhy 6:12; 16:18
***11:15** Çıx. 15:18; Dan. 2:44; 7:14,27

«Rəbbimiz və Onun Məsihi
Dünya üzərində Padşahlığa sahib oldu!
O əbədi olaraq padşahlıq edəcək!»
16 Onda Allahın önündə öz taxtlarında oturan iyirmi dörd ağsaqqal üzüstə
yerə qapanıb Allaha səcdə edərək 17 dedi:
«Ey Var Olan, Var Olmuş
Külli-İxtiyar Rəbb Allah,
Sənə şükür edirik!
Çünki Öz böyük qüdrətini alıb
Padşahlıq taxtına çıxdın.
18 *Millətlər qəzəbləndi,
Sənin də qəzəbinin vaxtı gəldi.
Ölüləri mühakimə etmək,
Sənin qulların olan
Peyğəmbərlərə, müqəddəslərə,
Sənin adından qorxanlara,
Kiçiklərə və böyüklərə mükafat vermək,
Yer üzünü məhv edənləri
Məhv etmək vaxtı çatdı».
19 *Allahın göydəki məbədi açıldı və Onun Əhd sandığı orada zahir oldu.
Onda şimşək, uğultu, göy gurultusu, zəlzələ və güclü dolu gəldi.

# 12

### Qadın və əjdaha

1 Göydə böyük bir əlamət zahir oldu: günəşi əyninə geyinmiş, ayaqları
altında ay və başında on iki ulduzlu tac olan bir qadın göründü. 2 O hamilə
idi və doğmaq üzrə idi, ağrı və iztirab çəkərək qışqırırdı. 3 *Göydə başqa bir
əlamət zahir oldu: yeddi başlı, on buynuzlu, başlarının üstündə də yeddi
kiçik tac olan böyük və od rəngində əjdaha göründü. 4 *Onun quyruğu göy
ulduzlarının üçdə birini süpürüb yer üzünə atdı. Əjdaha doğmağa hazırlaşan
qadının önündə dayandı ki, qadın doğan kimi onun uşağını udsun. 5 *Qadın
bir oğlan uşağı doğdu ki, «dəmir əsa ilə bütün millətlərə ağalıq edəcək». Bu
uşaq Allahın və Onun taxtının yanına qapılıb götürüldü. 6 Qadınsa çölə

---

*__11:18__ Zəb. 2:5; 110:5; 115:13
*__11:19__ Vəhy 8:5; 16:18,21
*__12:3__ Dan. 7:7
*__12:4__ Dan. 8:10
*__12:5__ Zəb. 2:9; Yeş. 66:7

qaçdı. Orada onun min iki yüz altmış gün bəslənməsi üçün Allah tərəfindən
hazırlanmış yeri var.
7 *Göydə döyüş oldu. Mikael və onun mələkləri əjdaha ilə döyüşdü. Əjdaha
və onun mələkləri də onlarla döyüşdü, 8 amma gücləri çatmadı. Göydə artıq
onlara yer qalmadı. 9 *O böyük əjdaha – iblis və Şeytan deyilən, bütün
dünyanı aldadan qədim ilan yer üzünə atıldı, mələkləri də onunla birgə atıldı.
10 *Mən göydə uca bir səsin belə dediyini eşitdim:

«İndi Allahımızın xilası, gücü, Padşahlığı və
Onun Məsihinin hakimiyyəti həyata keçdi.
Çünki bacı-qardaşlarımızı Allahımızın önündə
Gecə-gündüz təqsirləndirən ittihamçı kənara atıldı.
11 Onlar Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə
Ona qalib gəldilər.
Hətta ölümlə üzbəüz olanda da
Öz canlarını sevmədilər.
12 Buna görə də, ey göylər və
Orada məskən salanlar, bayram edin!
Qurunun və dənizinsə vay halına!
Çünki iblis böyük hiddətlə yanınıza endi,
Bilir ki, onun az vaxtı qalıb».

13 Əjdaha yer üzünə atıldığını görəndə oğlan uşağı doğan qadının ardınca
düşdü. 14 *Amma qadına böyük qartalın iki qanadı verildi ki, çölə – öz yerinə
uçsun və orada, ilandan kənarda bir vaxt, vaxtlar və yarım vaxt ərzində
bəslənsin. 15 İlan qadının ardınca ağzından sel kimi su püskürdü ki, sel onu
aparsın. 16 Lakin quru qadına kömək etdi: quru ağzını açdı və əjdahanın
ağzından püskürdüyü seli içib qurtardı. 17 Onda əjdaha qadına qəzəbləndi,
onun nəslindən Allahın əmrlərinə riayət edən və İsa barədə şəhadət edən
başqaları ilə döyüşmək üçün getdi 18 və dəniz sahilinin qumları üzərində
dayandı.[k]

# 13

---

[*] **12:7-8** Dan. 10:13,21; 12:1; Yəhd. 9

[*] **12:9** Yar. 3:1; Luka 10:18

[*] **12:10** Əyy. 1:9-11; Zək. 3:1

[*] **12:14** Dan. 7:25; 12:7

[k] **12:18** *Və dəniz sahilinin qumları üzərində dayandı* – bəzi əlyazmalarda, 13-cü fəslin başlanğıcı olaraq *Mən dəniz sahilinin qumları üzərində dayandım.*

## Dənizdən çıxan vəhşi heyvan

1 *Dənizdən çıxan on buynuzlu və yeddi başlı bir vəhşi heyvan gördüm.
Onun buynuzlarının üstündə on kiçik tac var idi, başlarının üzərində isə küfr
olan adlar yazılmışdı. 2 Gördüyüm vəhşi heyvan bəbirə oxşayırdı. Onun
ayaqları ayı ayaqları kimi, ağzı da aslan ağzı kimi idi. Əjdaha ona öz
gücünü, taxtını və böyük səlahiyyət verdi. 3 Vəhşi heyvanın başlarından biri
sanki ölümcül yaralanmışdı, ancaq o, ölümcül yarasından sağaldı. Bütün yer
üzü heyrət içində vəhşi heyvanın ardınca getdi. 4 Əjdahaya səcdə etdilər,
çünki vəhşi heyvana səlahiyyət verən o idi. Həmçinin vəhşi heyvana səcdə
edib dedilər: «Kim bu vəhşi heyvana tay olar və onunla döyüşə bilər?»
5 *Vəhşi heyvana lovğa və küfr danışan bir ağız da verildi. Həm də ona
səlahiyyətini qırx iki ay icra etmək izni verildi. 6 O, ağzını açdı ki, Allaha
küfr etsin, Onun adına, həmçinin məskəninə, yəni göydə məskən salanlara
küfr söyləsin. 7 *Ona izin verildi ki, müqəddəslərlə döyüşüb onlara qalib
gəlsin. Həmçinin ona bütün tayfalar, xalqlar, dillər və millətlər üzərində
səlahiyyət verildi. 8 *Kəsilmiş Quzunun həyat kitabına dünya yaranandan
bəri adı yazılanlardan savayı, yer üzündə yaşayanların hamısı ona səcdə
edəcək.
9 Kimin qulağı var, qoy eşitsin.
10 *Kim əsir olmalıdırsa,
Əsirliyə gedir,
Kim qılıncla öldürülməlidirsə,
Qılıncla öldürülür.[1]
Gərək müqəddəslərin dözümü və imanı olsun.

## Yerdən çıxan vəhşi heyvan

11 Mən yerdən çıxan başqa bir vəhşi heyvan da gördüm. Onun quzu
buynuzuna oxşayan iki buynuzu var idi, amma əjdaha kimi danışırdı. 12 O,
birinci vəhşi heyvanın bütün səlahiyyətini onun önündə icra edir, yer üzünü
və orada yaşayanları ölümcül yarasından sağalan həmin vəhşi heyvana səcdə
etməyə məcbur edir. 13 İkinci vəhşi heyvan böyük əlamətlər göstərir, hətta
insanların önündə göydən yerə od yağdırır. 14 Birinci vəhşi heyvanın önündə

---

*__13:1-2__ Dan. 7:3-6; Vəhy 17:3,7-12
*__13:5-6__ Dan. 7:8,25; 11:36
*__13:7__ Dan. 7:21
*__13:8__ Zəb. 69:28
*__13:10__ Yer. 15:2; 43:11
[1]**13:10** *Kim qılıncla … öldürülür* – bəzi əlyazmalarda *Kim başqalarını qılıncla öldürürsə, Özü də qılıncla öldürülməlidir.*

göstərilməsinə izin verilmiş əlamətlərlə yer üzündə yaşayanları aldadaraq
onlara deyir ki, qılıncla yaralanan, amma sağ qalan həmin vəhşi heyvanın
surətini yaratsınlar. [15] Ona həmin vəhşi heyvanın surətinə nəfəs vermək
qüdrəti verildi ki, bu surət də danışsın və ona səcdə etməyən hər kəsin
öldürülməsini əmr etsin. [16] İkinci vəhşi heyvan hamını – böyükləri və
kiçikləri, varlıları və yoxsulları, azadları və qulları məcbur edir ki, sağ əlləri
yaxud alınları damğalansın. [17] Beləcə bu damğanı, yəni həmin vəhşi
heyvanın adını ya da adını təmsil edən sayı daşımayan bir kəsə alıb-satmağa
icazə verilmir. [18] Bu işdə müdrik olmaq lazımdır. Kimin ağlı var, qoy bu
vəhşi heyvana məxsus sayı hesablasın, çünki bu bir insanın sayıdır. Onun
sayı altı yüz altmış altıdır.

# 14

### Quzu və 144 000 nəfər

[1] [*]Mən gördüm ki, Quzu Sion dağında durub. Onunla birlikdə 144 000
nəfər var idi. Onların alnında Quzunun adı və Onun Atasının adı yazılmışdı.
[2] Mən göydən gur suların sədasına və güclü göy gurultusuna bənzər bir səs
eşitdim. Eşitdiyim səs çəng çalanların çənglərinin səsi kimi idi. [3] Onlar
taxtın, dörd canlı məxluqun və ağsaqqalların önündə yeni bir nəğmə
oxuyurlar. Yer üzündən satın alınmış bu 144 000 nəfərdən başqa heç kəs bu
nəğməni öyrənə bilmədi. [4] Bunlar özlərini qadınlarla ləkələməmiş şəxslərdir,
çünki bakirdirlər. Quzu hara getsə, onlar da Onun ardınca gedir. Onlar Allah
və Quzu üçün nübar olaraq insanlar arasından satın alındı. [5] [*]Ağızlarından
heç vaxt yalan çıxmayıb, onlar ləkəsizdir.

### Üç mələk

[6] Mən göyün ortasında uçan başqa bir mələk gördüm. O, yer üzündə
yaşayanlara – hər millətə, hər tayfaya, hər dilə və hər xalqa yaymaq üçün
əbədi bir Müjdə gətirirdi. [7] Mələk uca səslə deyirdi: «Allahdan qorxun, Ona
izzət verin! Çünki Onun mühakimə edəcəyi vaxt gəldi. Göyü, yeri, dənizi və
su qaynaqlarını Yaradana səcdə edin!»
[8] [*]İkinci mələk də onun ardınca gələrək deyirdi: «Dağıldı, böyük Babil
dağıldı! O, əxlaqsızlığının coşğun şərabını bütün millətlərə içirtmişdi».
[9] [*]Bunların ardınca üçüncü bir mələk də gələrək uca səslə deyirdi: «Kim

---

[*]**14:1** Yez. 9:4; Vəhy 7:2-3
[*]**14:5** Sef. 3:13
[*]**14:8** Yeş. 21:9; Yer. 51:8; Vəhy 18:2
[*]**14:9-10** Yar. 19:24; Yeş. 51:17; Yez. 38:22

vəhşi heyvana və onun surətinə səcdə edib öz alnının yaxud əlinin
damğalanmasını qəbul edərsə, [10] o da Allahın qəzəb kasasına qarışıqsız
tökülmüş coşğun şərabından içəcək. Belələrinə müqəddəs mələklərin və
Quzunun önündə od və kükürdlə işgəncə veriləcək. [11] [*]Onlara verilən
işgəncənin tüstüsü əbədi olaraq qalxacaq. Vəhşi heyvana və onun surətinə
səcdə edib adına aid damğanı qəbul edənlər gecə-gündüz rahatlıq
tapmayacaq».
[12] Allahın əmrlərinə riayət edən və İsaya imanına sadiq qalan
müqəddəslərin gərək dözümü olsun.
[13] Onda göydən belə deyən bir səs eşitdim: «Yaz: bundan sonra Rəbdə
ölənlər nə bəxtiyardır!» Ruh deyir: «Bəli, onlar zəhmətlərindən ayrılıb
rahatlıq tapacaqlar, çünki əməllərinin nəticəsi onların ardınca gedir».

**Biçinin başlanması**

[14] [*]Mən gördüm ki, ağ bir bulud var və buludun üstündə bəşər oğluna
bənzər Biri oturub. Onun başında qızıl tac və əlində iti oraq var idi. [15] [*]Başqa
bir mələk də məbəddən çıxıb buludun üstündə Oturana uca səslə dedi:
«Orağını işə sal və biç. Çünki yer üzündəki əkin yetişdiyi üçün biçin zamanı
gəldi». [16] Onda buludun üstündə Oturan Öz orağını yer üzünə saldı və yer
üzü biçildi.
[17] Başqa bir mələk də göydəki məbəddən çıxdı. Onun əlində də iti oraq var
idi. [18] Od işinə məsul olan başqa bir mələk də qurbangahdan çıxıb iti orağı
olan mələyə uca səslə nida etdi: «İti orağını işə sal və yer üzündəki üzüm
tənəyindən salxımları kəs yığ, çünki üzümləri yetişib». [19] Mələk orağını yer
üzünə salaraq yerdəki üzüm tənəyindən üzümləri kəsib yığdı və Allah
hiddətinin böyük üzümsıxanına atdı. [20] [*]Üzümlər şəhərdən kənarda olan
üzümsıxanda tapdalandı. Üzümsıxandan qan çıxdı və at yüyənlərinə qədər
qalxaraq 1600 stadiyə[m] bərabər məsafəyə axdı.

# 15

**Bəla gətirən yeddi mələk**

[1] Mən göydə başqa bir böyük və heyrətli əlamət – yeddi bəlanı gətirən
yeddi mələk gördüm. Bunlar son bəlalardır, çünki Allahın hiddəti bunlarla

---

[*]**14:11** Yeş. 34:10
[*]**14:14** Dan. 7:13
[*]**14:15** Yoel 3:13
[*]**14:20** Yeş. 63:3; Mərs. 1:15; Vəhy 19:15
[m]**14:20** *1 600 stadi* – təqribən 300 km.

tamamlanırdı.
[2] Sanki odla qarışıq şüşədən olan bir dəniz gördüm. Vəhşi heyvana, onun
surətinə və adına aid saya qalib gələnlər əllərində Allahın verdiyi çənglərlə
şüşə dənizin üstündə durub. [3] [*]Onlar Allahın qulu Musanın nəğməsini və
Quzunun nəğməsini oxuyaraq deyir:

«Ey Külli-İxtiyar Rəbb Allah,
Sənin işlərin böyük və heyrətlidir.
Ey millətlərin Padşahı,[n]
Sənin yolların ədalətli və həqiqidir.
[4] Ya Rəbb, kim Səndən qorxmaz,
Kim Sənin adını izzətləndirməz?
Çünki yalnız Sən müqəddəssən.
Bütün millətlər gəlib
Sənin önündə səcdə edəcək,
Çünki Sənin ədalətli hökmlərin aşkar oldu».

[5] [*]Bundan sonra gördüm ki, göydəki məbəd, yəni Şəhadət çadırı açıldı [6] və
yeddi bəlanı gətirən yeddi mələk məbəddən çıxdı. Onlar təmiz və parlaq
kətan paltar geyinmiş, sinələrinə qızıl qurşaqlar bağlamışdı. [7] Onda dörd
canlı məxluqdan biri yeddi mələyə əbədi var olan Allahın hiddəti ilə dolu
yeddi qızıl nimçə verdi. [8] [*]Məbəd Allahın izzət və qüdrətinə görə tüstü ilə
doldu. Beləcə yeddi mələyin gətirdiyi yeddi bəla tamam olana qədər heç kəs
məbədə girə bilmədi.

# 16

### Allahın hiddətinin yeddi nimçəsi

[1] Mən məbəddən yeddi mələyə «gedin, Allahın hiddətinin yeddi nimçəsini
yer üzünə boşaldın» deyən uca bir səs eşitdim.
[2] [*]Birinci mələk gedib öz nimçəsini quruya boşaltdı və vəhşi heyvanın
damğasını daşıyan, onun surətinə səcdə edən adamlarda pis və ağrılı yaralar
əmələ gəldi.
[3] İkinci mələk öz nimçəsini dənizə boşaltdı və dəniz ölünün qanına bənzər
qatı qana döndü, dənizdə olan bütün canlı varlıqlar məhv oldu.

---

[*]**15:3-4** Çıx. 15:1; Zəb. 86:9; Yer. 10:7
[n]**15:3** *Millətlərin Padşahı* – bəzi əlyazmalarda *əsrlərin Padşahı.*
[*]**15:5** Çıx. 38:21
[*]**15:8** Çıx. 40:34; 1Pad. 8:10-11; 2Saln. 5:13-14; Yeş. 6:4
[*]**16:2** Çıx. 9:10

[4] *Üçüncü mələk öz nimçəsini çaylara və su qaynaqlarına boşaltdı və onlar
qana döndü. [5] Onda mən sular mələyinin belə dediyini eşitdim:
«Ey Var Olan, Var Olmuş Müqəddəs Olan,
Sən ədalətlisən ki, belə hökm çıxartdın.
[6] Çünki müqəddəslərin və peyğəmbərlərin qanını tökdülər.
Sən də onlara içmək üçün qan verdin.
Onlar buna layiqdir».
[7] Qurbangahdan gələn bir səs də eşitdim:
«Bəli, ey Külli-İxtiyar Rəbb Allah,
Sənin hökmlərin həqiqi və ədalətlidir».
[8] Dördüncü mələk öz nimçəsini günəşə boşaltdı və ona adamları odla
qarsalamaq gücü verildi. [9] Adamları qızmar isti qarsaladı və onlar bu bəlaları
idarə edən Allahın adına küfr etdilər, lakin tövbə edib Onu
izzətləndirmədilər.
[10] *Beşinci mələk öz nimçəsini vəhşi heyvanın taxtına boşaltdı və onun
padşahlığını qaranlıq bürüdü. Adamlar iztirabdan dillərini dişlərinə sıxdılar
[11] və öz iztirab və yaralarına görə göylərin Allahına küfr etdilər, lakin öz
əməllərindən tövbə etmədilər.
[12] *Altıncı mələk öz nimçəsini böyük Fərat çayına boşaltdı və onun suyu
qurudu ki, gündoğandan gələn padşahlar üçün yol açılsın. [13] Gördüm ki,
əjdahanın ağzından, vəhşi heyvanın ağzından və yalançı peyğəmbərin
ağzından qurbağaya bənzər üç natəmiz ruh çıxır. [14] Bunlar əlamətlər göstərən
cin ruhlarıdır və bütün dünyanın padşahlarının yanına gedirlər ki, onları
Külli-İxtiyar Allahın böyük günündə baş verəcək döyüşə toplasınlar.
[15] *Rəbb deyir: «Budur, oğru kimi gəlirəm; oyaq qalan, çılpaq gəzərək
ayıbını göstərməmək üçün paltarlarını əynində saxlayan kəs nə bəxtiyardır!»
[16] *Bu ruhlar padşahları ibranicə Har-Magedon adlanan yerə topladı.
[17] Yeddinci mələk öz nimçəsini havaya boşaltdı və məbəddəki[o] taxtdan
«Tamam oldu!» deyən uca bir səs gəldi. [18] *Onda şimşək, uğultu, göy
gurultusu və böyük bir zəlzələ baş verdi. Zəlzələ elə güclü idi ki, insanın yer
üzündə yaşamağa başladığı dövrdən bəri bundan böyüyü olmamışdı.

---

*__16:4__ Çıx. 7:17-21; Zəb. 78:44
*__16:10__ Çıx. 10:21-23
*__16:12__ Yeş. 11:15
*__16:15__ Mat. 24:43-44; Luka 12:39-40; Vəhy 3:3
*__16:16__ 2Pad. 23:29; Zək. 12:11
[o]__16:17__ *Məbəddəki* – bəzi əlyazmalarda *göydəki məbəddə olan.*
*__16:18__ Vəhy 8:5; 11:13,19

[19] [*]Böyük şəhər üç yerə bölündü və millətlərin şəhərləri dağıldı. Allah
tərəfindən böyük Babil yada salındı ki, Allahın şiddətli qəzəb şərabı ilə dolu
kasa ona verilsin. [20] [*]Bütün adalar aradan qalxdı və dağlar yox oldu.
[21] [*]Göydən adamların üstünə hərəsinin çəkisi bir talant olan böyük dolu
dənələri yağdı. Adamlar dolu bəlasına görə Allaha küfr etdilər, çünki bu bəla
çox şiddətli idi.

# 17

### Fahişə qadın

[1] [*]Yeddi nimçəsi olan yeddi mələkdən biri gəlib mənimlə danışdı və dedi:
«Gəl, çoxlu suların üzərində oturmuş bədnam fahişə barədə çıxacaq hökmü
sənə göstərim. [2] [*]Yer üzünün padşahları onunla əxlaqsızlıq etdilər və yer
üzündə yaşayanlar onun əxlaqsızlıq şərabından sərxoş oldular». [3] [*]O məni
Ruhda çölə apardı. Orada mən gördüm ki, bir qadın yeddi başlı, on buynuzlu
və üstündə başdan-başa küfr adları yazılan al rəngli bir vəhşi heyvanın
belində oturub. [4] [*]Qadın tünd qırmızı və al rəngli paltar geyinmiş, qızıl,
qiymətli daş və mirvari ilə bəzənmişdi. Onun əlində iyrənc şeylər və öz
əxlaqsızlığının çirkabı ilə dolu qızıl kasa var idi. [5] Alnında isə bu sirli ad
yazılmışdı: «Yer üzünün fahişələrinin və iyrəncliklərinin anası olan böyük
Babil». [6] Mən gördüm ki, qadın müqəddəslərin qanından və İsaya şəhadət
edənlərin qanından sərxoş olub.

Bunu görüb hədsiz heyrətləndim. [7] Onda mələk mənə dedi: «Nə üçün
heyrətə düşdün? Mən sənə qadının və onu daşıyan yeddi başlı, on buynuzlu
vəhşi heyvanın sirrini açacağam. [8] [*]Gördüyün vəhşi heyvan var olmuş, indi
yox olan və dibsiz dərinliklərdən çıxmaq üzrə olaraq həlaka gedir. Yer
üzündə yaşayan və dünya yaranandan bəri adı həyat kitabına yazılmamış
adamlar vəhşi heyvanı görəndə heyrətə düşəcək, çünki o var olmuş, yox
olan, amma yenə gəlməli olandır. [9] Bu işdə müdrik ağıl lazımdır. Yeddi baş
qadının oturduğu yeddi təpədir. Bunlar həm də yeddi padşahdır. [10] Onlardan
beşi ölüb, biri qalıb, digəri isə hələ gəlməyib və gələndə də qısa müddət

---

[*]**16:19** Yeş. 51:17
[*]**16:20** Vəhy 6:14
[*]**16:21** Çıx. 9:23-25; Vəhy 11:19
[*]**17:1** Yer. 51:13
[*]**17:2** Yeş. 23:17; Yer. 51:7
[*]**17:3** Vəhy 13:1
[*]**17:4** Yer. 51:7
[*]**17:8** Dan. 7:7; Vəhy 11:7

qalmalıdır. 11 Bir zaman var olmuş, indi isə yox olan vəhşi heyvan da
səkkizinci padşahdır. O, yeddi padşahdan biridir və həlaka gedir.
12 *Gördüyün on buynuz hələ padşahlıq etməyən on padşahdır. Onlar vəhşi
heyvanla birgə səlahiyyəti ələ alıb bir saat padşahlıq edəcəklər. 13 Onların
vahid bir niyyəti var, öz qüdrət və səlahiyyətlərini vəhşi heyvana təhvil
verəcəklər. 14 Onlar Quzu ilə döyüşəcəklər, lakin Quzu onlara qalib gələcək.
Çünki O, ağaların Ağası, padşahların Padşahıdır və Onunla birgə olanlar da
çağırılmış, seçilmiş və sadiq şəxslərdir».
15 Mələk mənə dedi: «Fahişənin üzərində oturduğunu gördüyün sular –
xalqlar, kütlələr, millətlər və dillərdir. 16 Gördüyün vəhşi heyvan və on
buynuz isə fahişəyə nifrət edərək onu soyub çılpaq qoyacaq, ətini yeyəcək
və onu odda yandıracaq. 17 Çünki Allah bunu onların ürəyinə qoydu ki,
Allahın niyyətini yerinə yetirsinlər, həmfikir olub Onun sözləri tamamlanana
qədər padşahlıqlarını vəhşi heyvana təhvil versinlər. 18 Gördüyün qadın da
yer üzünün padşahları üzərində padşahlıq edən böyük şəhərdir».

# 18

### Babilin dağılması

1 Bundan sonra göydən enən başqa bir mələyi gördüm. O, böyük
səlahiyyətə malik idi. Yer üzü onun ehtişamı ilə işıqlandı. 2 *O, uca səslə
nida edib dedi:

«Dağıldı! Böyük Babil dağıldı!
O, cinlərin məskəni,
Hər cür natəmiz ruhun sığınacağı,
Hər cür murdar quşun yuvası,
Hər cür murdar və mənfur vəhşi heyvanın oylağı oldu.[p]
3 *Çünki bütün millətlər
O qadının coşğun əxlaqsızlıq şərabından içdi.[q]
Yer üzünün padşahları
Onunla əxlaqsızlıq etdi.
Dünyanın tacirləri
Onun şəhvətpərəstliyi ilə qazanılan sərvətdən varlandı».

---

*17:12** Dan. 7:24

*18:2** Yeş. 13:19-21; 21:9; Yer. 50:39; 51:8; Vəhy 14:8

[p]**18:2** *Hər cür murdar quşun … oylağı oldu* – bəzi əlyazmalarda *Hər cür murdar və mənfur quşun yuvası oldu.*

*18:3** Yeş. 23:17; Yer. 51:7

[q]**18:3** *İçdi* – bəzi əlyazmalarda *içib dağıldı.*

4 *Mən göydən belə deyən başqa bir səs də eşitdim:
«Ey Mənim xalqım, oradan çıxın ki,
Onun günahlarına şərik olmayasınız,
Onun uğrayacağı bəlalara düçar olmayasınız.
5 *Çünki onun günahları qalaqlanıb göyə çatdı,
Allah onun haqsız işlərini yada saldı.
6 *O nə etdisə,[r]
Siz də əvəzində ona belə edin.
Əməllərinin əvəzini ona ikiqat verin.
Tökdüyü kasadakı şərabın
İkiqatını töküb ona verin.
7 *Özünü nə qədər izzətləndirib
Şəhvətpərəstlik içində yaşadısa,
Ona o qədər də işgəncə və yas verin.
Çünki ürəyində deyir:
"Mən mələkə taxtında oturmuşam,
Dul deyiləm, əsla yas tutmayacağam".
8 Buna görə də bir günün içində
Onun üstünə bəlalar gələcək,
Azara, yasa, aclığa düçar olacaq, odda yandırılacaq.
Çünki onu mühakimə edən Rəbb Allah qüdrətlidir».
9 *Onunla əxlaqsızlıq edən və şəhvətpərəstlik içində yaşayan yer üzünün
padşahları onun yanğınından çıxan tüstünü görəndə onun üçün ağlayıb ah-
nalə edəcəklər. 10 Onun çəkdiyi işgəncənin qorxusundan uzaqda dayanıb
deyəcəklər:
«Vay, vay halına, böyük şəhər,
Möhkəm şəhər Babil!
Çünki bir saat içində cəzan çatdı».
11 *Yer üzünün tacirləri də onun üçün ağlayıb yas tutur, çünki onların
malını – 12 *qızıl, gümüş, qiymətli daşlar və mirvariləri; incə kətan, ipək,
tünd qırmızı və al rəngli parçaları; hər cür ətirli ağacı; fil sümüyündən, ən

*18:4 Yeş. 48:20; Yer. 50:8; 51:6,45
*18:5 Yar. 18:20-21; Yer. 51:9
*18:6 Zəb. 137:8; Yer. 50:29
[r]**18:6** *O nə etdisə* – bəzi əlyazmalarda *O sizə nə etdisə.*
*18:7-8 Yeş. 47:7-9
*18:9-10 Yez. 26:16-18
*18:11 Yez. 27:31,36
*18:12-13 Yez. 27:12-13,22

qiymətli ağacdan, tuncdan, dəmirdən və mərmərdən olan hər cür əşyanı;
13 darçın, hil,[s] buxur, ətirli yağ və kündürü; şərab, zeytun yağı, narın un və
buğdanı; mal-qara, qoyunlar, atlar və arabaları; insan bədənləri və canlarını
da artıq heç kəs almır. 14 Onlar deyirlər:

«Ürəyinin arzuladığı bəhrələr əlindən çıxdı,
Bütün cah-calallı malların yox oldu.
Heç kəs onları bir daha tapmayacaq».

15 [*]Orada bu mallarla varlanan tacirlər bu şəhərin çəkdiyi işgəncənin
qorxusundan uzaqda dayanacaq və ağlayıb yas tutaraq deyəcəklər:

16 «Vay, vay halına,
İncə kətan, tünd qırmızı, al rəngli
Parçalardan paltar geyən,
Qızıl, qiymətli daşlar və mirvarilərlə
Bəzənən böyük şəhər!
17 [*]Çünki bu qədər var-dövlət
Bir saat içində viran oldu».

Bütün gəmi rəisləri, sərnişinlər, dənizçilər və dənizdə ticarət edənlərin
hamısı uzaqda dayanaraq 18 onun yanğınından çıxan tüstüyə baxıb nida
edirdilər: «Hansı şəhər bu böyük şəhərə tay ola bilər?» 19 Onlar başlarına toz
töküb fəryad edir və ağlayıb yas tutaraq deyirdilər:

«Vay, vay halına,
Dənizdə gəmisi olanların hamısının
Oranın çox qiymətli malları ilə
Varlandığı böyük şəhər!
Çünki bir saat içində viran oldun».

20 [*]Ey göylər,
Müqəddəslər, həvarilər və peyğəmbərlər,
Onun halını bayram edin!
Onun sizin üçün çıxartdığı hökmü
Allah onun öz başına gətirdi.

21 [*]Bir güclü mələk dəyirman daşı boyda böyük bir daşı götürərək dənizə
atıb dedi:

«Böyük şəhər Babil də

---

[s] **18:13** *Hil* – bəzi əlyazmalarda bu söz yoxdur.
[*] **18:15** Yez. 27:31,36
[*] **18:17-19** Yeş. 23:14; Yez. 27:26-34
[*] **18:20** Qanun. 32:43; Yer. 51:48
[*] **18:21** Yer. 51:63-64

Belə zorakılıqla yıxılacaq,
Bir daha görünməyəcək.
22 *Çəng çalanların, müğənnilərin,
Tütək və şeypur çalanların səsi
Artıq səndən gəlməyəcək.
Hər cür sənətlə məşğul olan sənətkar
Artıq səndə olmayacaq.
Dəyirman səsi də
Artıq səndən gəlməyəcək.
23 *Çıraq işığı
Artıq səndə görünməyəcək.
Bəy-gəlin sədası
Artıq səndən gəlməyəcək.
Çünki sənin tacirlərin
Yer üzünün böyük adamları idi,
Bütün millətlər
Sənin sehrbazlığınla aldanmışdı.
24 *Peyğəmbərlərin, müqəddəslərin və
Yer üzündə kəsilənlərin hamısının qanı
O şəhərdə üzə çıxdı».

# 19

## Göydə sevinc

1 Bundan sonra göydə böyük bir kütlənin səsinə bənzər uca bir səs eşitdim. Onlar deyirdi:
«Halleluya![t]
Xilas, izzət və qüdrət
Allahımıza məxsusdur!
2 *Çünki Onun hökmləri
Həqiqi və ədalətlidir.
O, əxlaqsızlığı ilə yer üzünü azdıran
Böyük fahişəni mühakimə etdi,
Öz qullarının qanının qisasını

---

*18:22** Yeş. 24:8; Yez. 26:13
*18:22** Yeş. 24:8; Yez. 26:13
***18:24** Yer. 51:49
[t]**19:1,3,4,6** *Halleluya – Rəbbə həmd edin* deməkdir.
***19:2** Qanun. 32:43; 2Pad. 9:7

Ondan aldı».
3 *Onlar dedi:
«Halleluya!
Fahişədən çıxan tüstü əbədi olaraq yüksəlir».
4 Onda iyirmi dörd ağsaqqal və dörd canlı məxluq yerə qapanaraq taxtda oturan Allaha səcdə edib dedi:
«Amin! Halleluya!»
5 *Taxtdan da belə bir səs gəldi:
«Ey Onun bütün qulları,
Böyükdən kiçiyə qədər
Ondan qorxanlar,
Allahımızı mədh edin!»
6 *Mən böyük bir kütlənin, gur suların və güclü göy gurultusunun səsinə bənzər bir səs də eşitdim. Bu səs deyirdi:
«Halleluya!
Çünki Külli-İxtiyar Rəbb Allahımız
Padşahlıq taxtına çıxdı!
7 Gəlin sevinib şad olaq,
Onu izzətləndirək!
Çünki Quzunun toyu başlayır.
Gəlini özünü hazırlayıb;
8 Geyinmək üçün ona
Təmiz, parlaq və incə kətan verildi».
İncə kətan müqəddəslərin saleh əməllərinin rəmzidir.
9 *Onda mələk mənə dedi: «Yaz: Quzunun toy ziyafətinə dəvət olunanlar
nə bəxtiyardır!» Yenə də mənə dedi: «Bunlar Allahın həqiqi sözləridir».
10 Mən ona səcdə etmək üçün ayaqlarına düşdüm. Amma o mənə dedi:
«Yox, olmaz! Mən də səninlə və İsa barədə şəhadət edən qardaşlarınla birgə Allahın quluyam. Allaha səcdə et. Çünki İsanın şəhadəti peyğəmbərlərə ilham verir».

## Ağ atın Süvarisi

11 *Mən gördüm ki, göy yarılıb və orada bir ağ at var. Onun belində oturan

---

*19:3 Yeş. 34:10
*19:5 Zəb. 115:13
*19:6 Zəb. 93:1; 97:1; 99:1; Yez. 1:24
*19:9 Mat. 22:2-3
*19:11 Yeş. 11:4; Yez. 1:1

Süvari Sadiq və Haqq adlanır və ədalətlə hökm çıxararaq döyüşür. 12 *Onun
gözləri odlu alova bənzəyir. Başında çoxlu sayda kiçik tac var və üzərində
Özündən başqa heç kəsin bilmədiyi bir ad yazılıb. 13 O, qana batmış[u] bir
paltar geyinib və Onun adı Allahın Kəlamıdır. 14 Göydə olan ordular ağ,
təmiz və incə kətan geyinərək ağ atların belində Onun ardınca gedirdi.
15 *Onun ağzından millətlərə zərbə vurmaq üçün iti bir qılınc çıxır. O, «dəmir
əsa ilə onlara ağalıq edəcək». Külli-İxtiyar Allahın şiddətli qəzəb şərabının
hazırlandığı üzümsıxanı Özü tapdalayacaq. 16 Onun paltarının və budunun
üstündə bu ad yazılıb: «Padşahların Padşahı və ağaların Ağası».
17 *Günəşdə dayanan bir mələyi də gördüm. O, uca səslə nida edib göyün
ortasında uçan bütün quşlara dedi: «Allahın böyük ziyafətinə gəlin. Bir yerə
yığılın ki, 18 padşahların, sərkərdələrin, igidlərin ətini, atların və bellərində
oturan atlıların ətini, azadların və qulların, böyük və kiçiklərin hamısının
ətini yeyəsiniz».
19 Mən gördüm ki, vəhşi heyvan, yer üzünün padşahları və onların orduları
atın belində oturan Süvari ilə və Onun qoşunu ilə döyüşməyə toplaşıb.
20 *Vəhşi heyvan yaxalandı; onun önündə əlamətlər göstərmiş, bunlarla onun
damğasını qəbul edib surətinə səcdə edənləri aldatmış yalançı peyğəmbər də
yaxalandı. Hər ikisi diri-diri kükürdlə yanan od gölünə atıldı. 21 Başqaları isə
atın belində oturan Süvarinin ağzından çıxan qılıncla həlak oldu. Bütün
quşlar da onların ətini yeyib doydu.

# 20

### Minillik Padşahlıq

1 Mən göydən enən bir mələyi gördüm. Onun əlində dibsiz dərinliyin açarı
və böyük bir zəncir var idi. 2 *O, əjdahanı – iblis və Şeytan deyilən o qədim
ilanı tutub min il müddətinə zəncirlədi. 3 Onu dibsiz dərinliyə atdı və
qapısını bağlayıb möhürlədi ki, min il bitənə qədər millətləri daha aldada
bilməsin. Bundan sonra isə o, qısa bir müddətə azad edilməlidir.
4 *Taxtları və onların üzərində oturanları da gördüm. Onlara hökm etmək
ixtiyarı verildi. İsa barədə şəhadət və Allahın kəlamı uğrunda boynu

---

*[**19:12**] Dan. 10:6
[u]**19:13** *qana batmış* – bəzi əlyazmalarda *üzərinə qan səpilmiş.*
*[**19:15**] Zəb. 2:9; Yeş. 63:3; Yoel 3:13; Vəhy 14:20
*[**19:17-18**] Yez. 39:17-20
*[**19:20**] Vəhy 13:1-18
*[**20:2**] Yar. 3:1
*[**20:4**] Dan. 7:9,22

vurulmuş canları da gördüm. Vəhşi heyvana və onun surətinə səcdə etməyib alınlarına və əllərinə damğanı qəbul etməmişdilər. Onlar dirilib Məsihlə
birgə min il padşahlıq etdi. 5 Bu, birinci dirilmədir. Qalan ölülərsə min il
bitməyincə dirilmədi. 6 Birinci dirilmədə iştirak edənlər bəxtiyar və
müqəddəsdir. İkinci ölümün onlar üzərində səlahiyyəti yoxdur. Əksinə, onlar
Allahın və Məsihin kahinləri olub Onunla birgə min il padşahlıq edəcək.

### Şeytanın cəzalandırılması

7 Min il bitəndən sonra Şeytan atıldığı zindandan azad ediləcək. 8 *Oradan
çıxacaq ki, yer üzünün dörd tərəfində olan millətləri – Qoq və Maqoqu[v]
aldadıb döyüşə toplasın; onların sayı dəniz qumu qədər çoxdur. 9 Onlar yer
üzünün hər tərəfinə hücum edib müqəddəslərin düşərgəsini və sevimli şəhəri
mühasirəyə aldılar. Lakin göydən[w] od düşüb onları yandırıb-yaxdı. 10 Onları
aldadan iblis də vəhşi heyvanın və yalançı peyğəmbərin atıldığı yerə – odlu
kükürd gölünə atıldı. Bunlar gecə-gündüz, əbədi olaraq işgəncə çəkəcək.

### Ölülərin mühakiməsi

11 *Böyük ağ taxt və onun üstündə Oturanı gördüm. Yer və göy Onun
önündən qaçdı və onlara yer tapılmadı. 12 Mən gördüm ki, böyükdən kiçiyə
qədər ölülər taxtın önündə dayanıb. Kitablar açıldı və həyat kitabı olan başqa bir kitab da açıldı. Ölülər kitablarda yazılanlara əsasən öz əməllərinə görə
mühakimə olundu. 13 Dəniz öz içində olan ölüləri, ölüm və ölülər diyarı da
öz qoynunda olan ölüləri təslim etdi. Hər biri öz əməlinə görə mühakimə
olundu. 14 Ölüm və ölülər diyarı odlu gölə atıldı. Bu odlu göl ikinci ölümdür.
15 Kimin adı həyat kitabına yazılmayıbsa, o, odlu gölə atıldı.

# 21

### Yeni göy və yeni yer

1 *Mən yeni bir göy və yeni bir yer gördüm. Çünki əvvəlki yerlə əvvəlki
göy keçib getmişdi, dəniz də artıq yox idi. 2 *Mən müqəddəs şəhərin – yeni
Yerusəlimin göydən, Allahın yanından endiyini gördüm. Şəhər öz bəyi üçün

---

***20:8** Yez. 7:2; 38:2,9,15

[v]**20:8** *Qoq və Maqoqu* – yaxud *Yəcuc-Məcucu.*

[w]**20:9** *Göydən* – bəzi əlyazmalarda *göydən, Allahın önündən.*

***20:11-12** Dan. 7:9-10

***21:1** Yeş. 65:17; 66:22; 2Pet. 3:13

***21:2** Yeş. 52:1; 61:10; Vəhy 3:12

bəzədilmiş gəlin kimi hazırlanmışdı. [3] [*]Taxtdan[x] belə deyən uca bir səs
eşitdim: «Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə
məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq[y]
aralarında yaşayacaq. [4] [*]Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm
olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib
getdi».
[5] Taxtda Oturan dedi: «Budur, Mən hər şeyi yenidən qururam». Yenə dedi:
«Yaz, çünki bu sözlər etibarlı və həqiqidir». [6] [*]O mənə dedi: «Tamam oldu!
Alfa və Omeqa, Başlanğıc və Axır Mənəm. Mən susayana həyat suyunun
qaynağından müftə su verəcəyəm. [7] [*]Qalib gələn bunları irs alacaq; "Mən
ona Allah, o isə Mənə oğul olacaq". [8] Qorxaqların, imansızların, iyrənclərin,
qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların
aqibəti isə od və kükürdlə yanan göldə olacaq; bu, ikinci ölümdür».

## Yeni Yerusəlim

[9] Son yeddi bəla ilə dolu yeddi nimçəsi olan yeddi mələkdən biri gəlib
mənimlə danışaraq dedi: «Gəl, mən sənə Quzunun arvadı olacaq gəlini
göstərim». [10] [*]O məni Ruhda böyük və uca bir dağın başına apardı. Oradan
mənə göydən, Allahın yanından enən müqəddəs[z] şəhəri, Yerusəlimi göstərdi.
[11] Allahın ehtişamı orada idi; oradakı işıq ən qiymətli daş – büllur yəşəm daşı
kimi parıldayırdı. [12] [*]Oranın böyük və uca divarı, on iki darvazası var idi.
Darvazalarda on iki mələk durmuşdu. Darvazaların üstündə İsrailin on iki
qəbiləsinin adı həkk olunmuşdu. [13] Şərqdə üç darvaza, şimalda üç darvaza,
cənubda üç darvaza və qərbdə üç darvaza var idi. [14] Şəhər divarının on iki
təməli var idi və təməllərin üstündə Quzunun On İki həvarisinin adı var idi.
[15] [*]Mənimlə danışan mələyin əlində şəhəri, oranın darvazalarını və divarını
ölçmək üçün bir qızıl ölçü qamışı var idi. [16] Şəhər dördbucaqlı şəklində idi
və oranın uzunluğu eninə bərabərdir. Mələk qamışla şəhəri ölçdü: oranın

---

[*]**21:3** Lev. 26:11,12; Yez. 37:27
[x]**21:3** *Taxtdan* – bəzi əlyazmalarda *Göydən.*
[y]**21:3** *Onların Allahı olaraq* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
[*]**21:4** Yeş. 25:8; 65:19
[*]**21:6** Yeş. 55:1
[*]**21:7** 2Şam. 7:14; Zəb. 89:26-27
[*]**21:10-11** Yez. 40:2
[z]**21:10** *Müqəddəs* – bəzi əlyazmalarda *böyük müqəddəs.*
[*]**21:12-13** Yez. 48:30-34
[*]**21:15** Yez. 40:3

uzunluğu, eni və hündürlüyü bərabər olub 12 000 stadi[a] idi. 17 O, şəhərin
divarını da ölçdü: onun hündürlüyü mələyin istifadə etdiyi insan ölçüsünə
görə 144 qulac[b] idi. 18 *Divar yəşəm daşından tikilmişdi, şəhər isə şəffaf
şüşəyə bənzər saf qızıldan idi. 19 Şəhər divarının təməlləri hər cür qiymətli
daşla – birinci təməl yəşəmlə, ikincisi göy yaqutla, üçüncüsü əqiqlə,
dördüncüsü zümrüdlə, 20 beşincisi damarlı əqiqlə, altıncısı qırmızı əqiqlə,
yeddincisi sarı yaqutla, səkkizincisi berillə, doqquzuncusu topazla, onuncusu
zəbərcədlə, on birincisi sirkonla, on ikincisi ametistlə bəzədilmişdi. 21 On iki
darvaza on iki mirvaridən idi, hər darvaza bir mirvaridən düzəldilmişdi.
Şəhərin baş küçəsi isə şüşə kimi şəffaf olan xalis qızıldan idi.
22 Mən orada məbəd görmədim, çünki oranın məbədi Külli-İxtiyar Rəbb
Allah və Quzudur. 23 *Şəhərin işıqlanması üçün nə günəşə, nə də aya ehtiyacı
var, çünki Allahın ehtişamı oranı işıqlandırır, Quzu da oranın çırağıdır.
24 *Millətlər şəhərin işığında gəzəcək, yer üzünün padşahları cah-calalını[c]
oraya gətirəcək. 25 *Oranın darvazaları gündüz heç bağlanmayacaq, orada
gecə olmayacaq. 26 Millətlərin cah-calal və şərəfi oraya gətiriləcək. 27 *Oraya
murdar olan heç bir şey, iyrənc iş görən və yalan danışan heç kim əsla
girməyəcək, yalnız adları Quzunun həyat kitabına yazılanlar girəcək.

# 22

1 *Mələk mənə həyat suyu[d] axan çayı göstərdi. Bu çay büllur kimi parlaq
olub Allahın və Quzunun taxtından çıxır 2 *və şəhərin baş küçəsinin
ortasından axırdı. Çayın hər iki tayında on iki cür meyvə gətirən həyat ağacı
var idi. O ağac hər ay meyvə gətirir. Onun yarpaqları millətlərə şəfa vermək
üçündür. 3 *Daha lənətlənən heç bir şey olmayacaq. Allahın və Quzunun taxtı
orada olacaq və qulları Ona ibadət edəcək. 4 Onlar Onun üzünü görəcək,

---

[a]**21:16** *12 000 stadi* – təqribən 2 200 kilometr.
[b]**21:17** *144 qulac* – təqribən 65 metr.
*__21:18-21__ Yeş. 54:11-12
*__21:23__ Yeş. 60:19-20
*__21:24__ Yeş. 60:3
[c]**21:24** *Cah-calalını* – bəzi əlyazmalarda *cah-calal və şərəflərini.*
*__21:25-26__ Yeş. 60:11
*__21:27__ Yeş. 52:1; Yez. 44:9
*__22:1__ Yez. 47:1; Zək. 14:8
[d]**22:1** *Həyat suyu* – bəzi əlyazmalarda *təmiz həyat suyu.*
*__22:2__ Yar. 2:9
*__22:3__ Zək. 14:11

alınlarında Onun adını daşıyacaqlar. 5 *Artıq gecə olmayacaq, heç kəsin çıraq
və günəş işığına ehtiyacı olmayacaq. Çünki Rəbb Allah onlara işıq verəcək
və onlar əbədi olaraq padşahlıq edəcək.

**İsanın zühuru**

6 Mələk mənə dedi: «Bu sözlər etibarlı və həqiqidir. Peyğəmbərlərin
ruhlarına ilham verən Rəbb Allah mələyini göndərib ki, Öz qullarına tezliklə
baş verməli hadisələri göstərsin». 7 İsa deyir: «Budur, tezliklə gəlirəm! Bu
kitabın peyğəmbərlik sözlərinə riayət edən kəs nə bəxtiyardır!»
8 Mən Yəhya bunları eşitdim və gördüm. Eşidib gördükdə bunları mənə
göstərən mələyə səcdə etmək üçün onun ayaqlarına düşdüm. 9 Amma o mənə
dedi: «Yox, olmaz! Mən səninlə, peyğəmbər qardaşlarınla və bu kitabın
sözlərinə riayət edənlərlə birgə Allah quluyam. Allaha səcdə et». 10 Yenə də
mənə dedi: «Bu kitabın peyğəmbərlik sözlərini möhürləmə, çünki vaxt
yaxındır. 11 *Haqsızlıq edən qoy daha da haqsızlıq etsin. Murdar olan daha da
murdarlansın. Saleh olansa qoy daha da saleh işlər görsün. Müqəddəs olan
daha da müqəddəs olsun».
12 *İsa deyir: «Budur, tezliklə gəlirəm. Verəcəyim mükafat Mənimlədir və
hər kəsə öz əməlinə görə əvəz verəcəyəm. 13 *Alfa və Omeqa, Birinci və
Sonuncu, Başlanğıc və Axır Mənəm!»
14 *Xalatlarını günahdan təmizləyənlər[e] nə bəxtiyardır! Bununla da həyat
ağacından yeməyə icazələri olacaq, darvazalardan keçib şəhərə girəcəklər.
15 İt kimi murdarlar, sehrbazlar, əxlaqsızlar, qatillər, bütpərəstlər və yalanı
sevib danışan hər kəssə kənarda qalacaq.
16 *Yenə deyir: «Mən İsa Öz mələyimi göndərdim ki, cəmiyyətlərə aid olan
bu şəhadəti sizə versin. Mən Davudun Kökü və Nəsli, parlaq Dan
Ulduzuyam».
17 *Ruh da, gəlin də deyir: «Gəl!» Qoy eşidən də desin: «Gəl!» Susayan
qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün.

---

*__22:5__ Yeş. 60:19; Dan. 7:18
*__22:11__ Dan. 12:10
*__22:12__ Zəb. 28:4; Yeş. 40:10; 62:11; Yer. 17:10
*__22:13__ Yeş. 44:6; 48:12; Vəhy 1:8, 17; 2:8
*__22:14__ Yar. 2:9; 3:22
[e]__22:14__ *Xalatlarını günahdan təmizləyənlər* – bəzi əlyazmalarda *Əmrlərinə əməl edənlər.*
*__22:16__ Yeş. 11:1,10
*__22:17__ Yeş. 55:1

18 [*]Mən bu kitabın peyğəmbərlik sözlərini eşidən hər kəsə xəbərdarlıq
edirəm: kim bunlara bir şey artırarsa, Allah da ona bu kitabda yazılan
bəlaları artıracaq; 19 kim bu peyğəmbərlik kitabının sözlərindən bir şey
götürərsə, Allah da bu kitabda yazılmış həyat ağacından və müqəddəs
şəhərdən ona düşən payı götürəcək.
20 Bunlara şəhadət edən deyir: «Bəli, tezliklə gəlirəm!» Amin. Gəl, ya Rəbb
İsa!
21 Rəbb İsanın lütfü hamıya[f] yar olsun! Amin.

---

[*]**22:18-19** Qanun. 4:2; 12:32
[f]**22:21** *Hamıya* – bəzi əlyazmalarda *bütün müqəddəslərə*.